AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT
STATİSTİKA KOMİTƏSİ

# STATİSTİK NƏŞRLƏRİN KATALOQU

BAKI - 2012

## ƏLAQƏ TELEFONLARI:

| | | Telefon<br>*Telephone* |
|---|---|---|
| Məlumatların yayılması şöbəsi | M. Əmirova | 538-64-98 |
| Statistika İşlərinin əlaqələndirilməsi şöbəsi | A.Mansurov | 539-81-04 |
| Əhali və Gender statistikası şöbəsi | R.Allahverdiyev | 538-51-43 |
| Əmək statistikası şöbəsi | E. Əhmədov | 538-86-68 |
| Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi | N. Süleymanov | 538-74-50 |
| Sənaye və tikinti statistikası şöbəsi | A. Abbasəliyev | 539-87-17 |
| Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsi | S. Yusifov | 538-73-57 |
| Ticarət statistikası şöbəsi | R. Süleymanov | 538-76-95 |
| Xidmət statistikası şöbəsi | E. Hacıyev | 538-90-12 |
| Qiymət statistikası şöbəsi | N. Quliyeva | 538-52-72 |
| Ərzaq təhlükəsizliyi və balansları statistikası şöbəsi | Ə. Zeynallı | 538-87-91 |

**Fax:** +99412 538-24-42

**E-mail:** sc@azstat.org
**http:** www.azstat.org

**Ünvan:** AZ 1136 Inşaatçılar prospekti BAKI, Azərbaycan

# STATİSTİK MƏCMUƏLƏR

## AZƏRBAYCANIN STATİSTİK GÖSTƏRİCİLƏRİ

Bu məcmuə ölkənin iqtisadi və sosial həyatında baş verən prosesləri əks etdirən daha dolğun illik nəşrdir.

Məcmuə dövlət statistika orqanları tərəfindən müəssisələrdən, təşkilatlardan alınan məlumatlar, siyahıyaalmaların, seçmə müayinələrin və digər statistik müşahidələrin keçirilməsi yolu ilə əldə edilən məlumatlar, Azərbaycan Respublikasının nazirlik və baş idarələrinin (Maliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Milli Bank və s.) məlumatları, eləcə də iqtisadi və müəyyən sosial məlumatlar toplamaq üçün müayinə, sorğu keçirən təşkilatlardan alınan informasiya və beynəlxalq təşkilatların materialları əsasında Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmışdır.

Məcmuədə 2000-2011-ci illərdə Azərbaycan Respublikasının sosial-iqtisadi vəziyyəti haqqında statistik məlumatlar və 2000, 2005 və 2010-cu illərlə müqayisələr verilir. Məcmuədə mülkiyyət münasibətlərinin və təsərrüfatçılıq formalarının inkişafı, maliyyə vəziyyəti və bələdiyyə, sığorta, tədiyə balansı, sosial və mənzil fondunun özəlləşdirilməsi haqqında məlumatlar, Azərbaycan Respublikasının şəhər və rayonları üzrə əsas sosial-iqtisadi göstəricilər, MDB ölkələri üzrə və beynəlxalq müqayisələr verilmişdir.

İllik statistik məcmuə geniş oxucu kütləsi, statistiklər, iqtisadçılar və idarəetmə orqanları işçiləri üçün nəzərdə tutulmuşdur.

Məcmuənin nəşr edilməsi cari ilin avqust ayında nəzərdə tutulub.

## AZƏRBAYCAN RƏQƏMLƏRDƏ

Qısa statistik məcmuə 2011-ci ilin ilkin məlumatları əsasında dərc olunur və ölkənin sosial-iqtisadi inkişafını xarakterizə edir.

Məcmuənin nəşr edilməsi cari ilin aprel ayında nəzərdə tutulub.

## AZƏRBAYCANIN REGIONLARI

Məcmuə 2005-2011-ci illərdə respublikanın regionlarının sosial-iqtisadi inkişafını əks etdirir.

Məcmuənin nəşr edilməsi cari ilin sentyabr ayında nəzərdə tutulub.

## REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI (2009-2013-CÜ İLLƏR)

**“Regionların sosial-iqtisadi in-kişafı (2009-2013-cü illər)”** məcmuəsi rüblük dövrilikdə azərbaycan dilin-də nəşr edilir. Məcmuədə “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” üzrə nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsinin vəziyyəti barədə məlumatlar öz əksini tapacaq.

Məcmuənin nəşr edilmə müddəti – hesabat dövründən sonrakı 40-cı gün.

## YENİ İŞ YERLƏRİ

**“Yeni iş yerləri”** statistik məcmuəsi rüblük dövriliklə azərbaycan dilində nəşr edilir. Məcmuədə 2009-cu ilin əvvəlindən etibarən “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” üzrə nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi və ölkə iqtisadiyyatının dayanıqlı inkişafı nəticəsində yeni açılmış iş yerləri haqqında məlumat əks olunacaq. Ölkədə açılan iş yerləri barədə məlumat iqtisadi rayonlar, iqtisadi fəaliyyət növləri, ayrı-ayrı rayonlarda yeni yaradılmış, mövcud və fəaliyyətini bərpa etmiş müəssisələr üzrə bölgü ilə veriləcək.

Məcmuənin nəşr edilmə müddəti – hesabat dövründən sonrakı 35-ci gün.

## BAKI ŞƏHƏRİNİN VƏ QƏSƏBƏLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFI

**“Bakı şəhərinin və qəsəbələrinin sosial-iqtisadi inkişafı”** məcmuəsi 2011-ci ildən başlayaraq rüblük dövriliklə azərbaycan dilində nəşr edilir. Məcmuədə Azərbaycan Respublikası Prezidentinin 4 may 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nda nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsinin gedişinə dair məlumat öz əksini tapır, Proqramın əhatə etdiyi Bakı şəhərinin və onun qəsəbələrinin bəzi sosial demoqrafik göstəriciləri verilir.

Məcmuənin nəşr edilmə müddəti hesabat dövründən sonrakı ayın 40-cı günü.

# AZƏRBAYCANIN DEMOQRAFİK GÖSTƏRİCİLƏRİ

Statistik məcmuə ölkədə demoqrafik prosesləri xarakterizə edir və inzibati ərazi bölgüsü, əhalinin sayı və tərkibi, əhalinin təkrar istehsalının ümumi göstəriciləri, doğum, ölüm, səbəblər üzrə ölüm, nikah və boşanmalar, miqrasiya və beynəlxalq müqayisələr adlı bölmələrdən ibarətdir.

Məcmuənin **"İnzibati ərazi bölgüsü, əhalinin sayı və tərkibi"** bölməsində Azərbaycanın regionlarının ərazisi və inzibati ərazi bölgüsü, əhalinin sayına görə rayon və şəhər yerlərinin qruplaşması, əhalinin sayı, cins və yaş qrupları üzrə bölgüsü, milli tərkibi, ana dili və danışdığı digər dillər, əhalinin savadlılıq səviyyəsi haqqında məlumatları əks etdirilir.

**"Əhalinin təkrar istehsalının ümumi göstəriciləri"** bölməsində doğulanlar, ölənlər və əhalinin təbii artımı, şəhər və kənd yerləri üzrə ümumi nəsilvermə əmsalı, doğulanda gözlənilən ömür uzunluğu, əhalinin təkrar istehsalının əmsalları haqqında məlumatlar cəmlənir.

**"Doğum"** bölməsi ananın yaşına görə diri doğulanlar, doğumun yaş əmsalları, doğum ardıcıllığı üzrə diri doğulanların sayı, ananın yaşı və doğum ardıcıllığına görə diri doğulan uşaqların sayı, rəsmi qeydə alınmış və alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı, doğum zamanı ananın orta yaşı, ananın nikah vəziyyətinə görə diri doğulanlar haqqında məlumatları əhatə edir.

**"Ölüm"** bölməsində cins və yaş qrupları, eləcə də şəhər və kənd əhalisi üzrə ölənlərin sayı, ölümün əmsalları, əmək qabiliyyətli yaşda ölənlərin sayı, ana ölümü, 5 yaşadək uşaq ölümü və körpə ölümü haqqında məlumat verilir.

**"Səbəblər üzrə ölüm"** bölməsində bütün əhali və 1 yaşa qədər uşaqlar arasında ölümün əsas səbəbləri, ölümün əsas səbəbləri üzrə əmək qabiliyyətli yaşda olan əhali arasında ölənlərin sayı, ölümün əmsalları haqqında informasiya şəhər və kənd yerləri üzrə verilir.

**"Nikah və boşanmalar"** bölməsində rəsmi qeydə alınmış nikah və boşanmaların sayı, ümumi əmsalları, nikaha daxil olanların orta yaşı, nikahın davametmə müddətinə və boşananların yaşına görə boşanmalar, uşaqlı ailələrdə boşanmaların sayı, bəy və gəlinin yaşına görə nikahlar, ailələrin ailə üzvlərinin sayına və uşaqların sayına görə bölgüsü haqqında məlumatlar verilir.

**"Miqrasiya"** bölməsində Azərbaycana daimi yaşamaq üçün xarici ölkələrdən gələn və Azərbaycandan daimi yaşamaq üçün gedənlərin ölkələr üzrə və miqrantların cins və yaş qrupları üzrə bölgüsü verilir.

**"Beynəlxalq müqayisələr"** bölməsi Dünya ölkələri üzrə bəzi demoqrafik göstəriciləri əhatə edir.

Məcmuə azərbaycan və ingilis dillərində tərtib olunur və nəşr edilməsi cari ilin iyul ayında nəzərdə tutulub.

## AZƏRBAYCANDA QADINLAR VƏ KİŞİLƏR

Azərbaycan Hökuməti Pekində keçirilmiş IV Ümumdünya qadınlar konfransının "Fəaliyyət platforması"nı qəbul etmiş və ona uyğun olaraq ölkədə gender statistikasının həyata keçirilməsini Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə həvalə etmişdir.

Bununla əlaqədar Dövlət Sta-tistika Komitəsi 1999-cu ildən başla-yaraq mütəmadi olaraq **"Azərbay-canda qadınlar və kişilər"** adlı illik məcmuə hazırlayır və nəşr edir.

Məcmuə gender bölgüsündə beynəlxalq standartlara uyğunlaşdırılmış şəkildə hazırlanır və 9 bölmədən ibarətdir: "Əhali", "Səhiyyə", "Təhsil və elmi kadrlar", "Məşğulluq və işsizlik", "Əhalinin iqtisadi fəallığına dair statistik müayinə", "Həyat səviyyəsi və sosial təminat", "Parlament", "Hüquqpozmalar" və "Beynəlxalq müqayisələr".

Məcmuə azərbaycan və ingilis dillərində tərtib olunur və nəşr edilməsi cari ilin avqust ayında nəzərdə tutulub.

## AZƏRBAYCANDA UŞAQLAR

Məcmuədə Azərbaycan Respublikasında uşaqların sosial vəziyyətini xarakterizə edən statistik məlumatlar toplanır və 7 bölmədə qruplaşdırılır.

**"Demoqrafik göstəricilər"** bölməsi əhalinin və uşaqların cins və yaş qrupları üzrə sayını, müvafiq yaş-da olan uşaqlar üçün gözlənilən ömür uzunluğunu, doğulanlar, ölənlər, nikahlar, boşanmalar haqqında və digər əsas demoqrafik göstəriciləri əhatə edir.

**"Təhsil"** bölməsində təhsilin pillələri üzrə təhsil prosesini təmin edilməsini xarakterizə edən göstəricilər əks etdirilmişdir. Məktəbəqədər, ümumi, ilk peşə və orta ixtisas, eləcə də ali təhsil müəssisələri haqqında məlumatlar verilir.

Mütləq göstəricilərlə yanaşı bəzi hallarda nisbi göstəricilərdən də istifadə edilir.

**"Əhalinin yaşayış şəraiti"** bölməsində ev təsərrüfatları haqqında ümumi məlumatlar, iqtisadiyyatda məşğul olan və işsiz uşaqların sayı haqqında məlumatlar verilir. Burada həmçinin, uşaq geyimlərinin istehlak qiymətləri, uşaq teatrları, uşaq kütləvi kitabxanaları, uşaq dərnəkləri və kollektivləri, kinoseanslar haqqında və sair məlumatlar da cəmlənir.

**"Müalicəvi - profilaktik xidmətlər. Sosial təminat"** bölməsində pediatr həkimlərin sayı, uşaq xəstəxanaları, poliklinikaları və sanatoriyaları, qadın məsləhətxanaları, körpələr evləri, əqli və fiziki inkişafında qüsurları

olan uşaqlar üçün internat məktəbləri, valideyn himayəsindən məhrum olan uşaqların yerləşdirilməsi, həmçinin qəyyumluğa və övladlığa götürülmüş uşaqlar, uşaqlara dövlət tərəfindən verilən yardımlar haqqında informasiyalar verilir.

**"Xəstəliklər və ölüm"** bölməsində uşaqlar arasında ayrı-ayrı xəstəlik növləri iki əsas göstərici ilə səciyyələndirilir: qeydə alınmış xəstəliklərin sayı və diaqnozu ilk dəfə qoyulmuş xəstələrin sayı, həmçinin perinatal ölüm, uşaqlar arasında ölənlərin sayı və ölümün əsas səbəbləri eləcə də ana ölümü haqqında məlumatlar da verilir.

**"Cinayətkarlıq"** bölməsində cinayət törətmiş və məhkum olunmuş uşaqlar haqqında məlumatlar öz əksini tapır.

**"İqtisadi və inzibati rayonlar üzrə məlumatlar"** bölməsində yuxarıda qeyd olunan göstəricilərin bir qismi iqtisadi rayonlar üzrə verilir.

Məcmuə azərbaycan və ingilis dillərində tərtib olunur və nəşr edilməsi cari liln avqust ayında nəzərdə tutulub.

## AZƏRBAYCAN GƏNCLƏRİ

**"Azərbaycan gəncləri"** adlı statistik məcmuə demoqrafik göstəricilər, sağlamlığın qorunması, məşğulluq və işsizlik, təhsil və hüquqpozmalar adlı bölmələrdən ibarətdir.

Məcmuənin **"Demoqrafik göstəricilər"** bölməsində gənclərin cins və yaş qrupları üzrə bölgüsü, gənc anaların yaş və doğum ardıcıllığına görə diri doğulan uşaqlarının sayı, rəsmi qeydə alınmış və alınmamış nikahda olan gənc qadınların yaş qruplarına görə diri doğulan uşaqlarının sayı, həmçinin gənc yaşında ölənlərin cins və yaş qrupları üzrə bölgüsü, nikahlar, boşan-malar və s. haqqında məlumatlar verilir.

"**Sağlamlığın qorunması"** bölməsi gənclərin əsas xəstəlik sinifləri üzrə xəstələnməsi, onların cins və yaş qrupları üzrə bədxassəli şişlərlə, aktiv vərəmlə, zöhrəvi xəstəliklərlə, alkoqolizm, narkomaniya və toksikomaniya ilə xəstələnməsi, abortların yaş qrupları üzrə bölgüsü, ilk dəfə əlil hesab olunmuş gənclərin əsas xəstəliklər üzrə bölgüsü, idman qurğuları, Azərbaycan idmançıları tərəfindən qazanılmış medallar, idman seksiyalarında ayrı-ayrı idman növləri ilə məşğul olanlar haqqında məlumatları əks etdirir.

**"Məşğulluq və işsizlik"** bölməsi Əhalinin iqtisadi fəallığına dair statistik müayinələrin məlumatlarına əsasən iqtisadi fəal və iqtisadi qeyri-fəal əhali, məşğul əhalinin cins, yaş qrupları və təhsil səviyyəsi üzrə, eləcə də işsiz əhalinin cins, yaş qrupları və təhsil səviyyəsi üzrə bölgüsü və s. haqqında məlumatları əhatə edir.

**"Təhsil və hüquqpozmalar"** bölməsində əhalinin təhsil səviyyəsi, orta ixtisas və ali təhsil müəssisələrində tələbələrin sayı, doktorantların və

elmi müəssisələrdə tədqiqatçıların sayı, cinayət törətmiş gənclərin sayı haqqında məlumatlat verilir.

Məcmuə azərbaycan və ingilis dillərində tərtib olunur və nəşr edilməsi cari ilin sentyabr ayında nəzərdə tutulub.

## ƏMƏK BAZARI

Statistik məcmuə Azərbaycan Respublikasının əmək bazarını xarakterizə edən göstəriciləri özündə əks etdirir. Məcmuəyə ölkənin iqtisadiyyatını xarakterizə edən əhali və əmək ehtiyatları, iqtisadiyyatın fəaliyyət növləri üzrə məşğul olan əhalinin sayı, işçi qüvvəsinin hərəkəti, cinslər üzrə bölgü, əmək şəraiti, əmək bazarında tələb və təkliflər, işsizliyin səviyyəsi, əmək haqqı, işçi qüvvəsinə çəkilən xərclərin dəyəri, kadrların peşə təhsili və iqtisadi fəal əhalinin digər göstəriciləri daxil edilmişdir.

Məcmuədə 2000-2011-ci illərdə Azərbaycan Respublikasının əmək bazarının vəziyyəti haqqında statistik məlumatlar verilir.

Əmək üzrə göstəricilər beynəlxalq standartlara uyğun qəbul edilmiş rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramına müvafiq olaraq əks etdirilir. Proqramın icrası müasir tələblərə cavab verən statistik məlumatlarla ölkədaxili tələbatı ödəmək, həm də respublikanın üzv olduğu beynəlxalq təşkilatları ölkənin sosial-iqtisadi inkişafı barədə beynəlxalq standartlara cavab verən statistik məlumatlarla təmin etmək üçün şərait yaratmışdır.

Məcmuənin nəşr edilməsi cari ilin avqust ayında nəzərdə tutulub.

## DÖVLƏT QULLUQÇULARI

Statistik məcmuə Azərbaycan Respublikasında çalışan dövlət qulluqçuları haqqında məlumatları, o cümlədən ölkə və iqtisadi rayonlar eyni zamanda, yaş və cinslər üzrə dövlət qulluğunun vəzifələrini tutmuş işçilərin sayı və orta aylıq əmək haqqını xarakterizə edən göstəriciləri özündə əks etdirir.

Məcmuədə 2005-2011-ci illərdə ölkədə fəaliyyət göstərən dövlət qulluqçuları haqqında statistik məlumatlar verilir.

İnkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da dövlət qulluğu irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, ailə, əmlak və qulluq vəziyyətindən, yaşayış yerindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan ölkə vətəndaşları hesabına formalaşır. Dövlət qulluğunun başlıca funksiyası, onun mahiyyəti

– dövlətə qulluq etmək, dövlət və cəmiyyət, dövlət və onun vətəndaşları arasında dayanıqlı əlaqəni yaratmaq, öz fəaliyyətində əməli surətdə demokratik prinsipləri realizə etmək, vətəndaş cəmiyyətinin genişləndirilməsinə şərait yaratmaq, ictimai institutlara maksimal dərəcədə idarəetmə funksiyalarını ötürməkdir.

Məcmuənin nəşr edilməsi cari ilin iyun ayında nəzərdə tutulub.

## AZƏRBAYCANIN MİLLİ HESABLARI

Azərbaycanın Milli Hesabları statistik məcmuəsi 1993-cü ildən başlayaraq iki dildə -Azərbaycan və İngilis dillərində nəşr edilir, hazırki məcmuə 2005-ci il və ondan sonrakı dövrləri əhatə edir. Statistik məcmuə Azərbaycanda milli iqtisadiyyatın inkişafının nəticələrini xarakterizə edən makroiqtisadi göstəriciləri və beynəlxalq statistikanın tələblərinə uyğun qurulmuş toplu Milli Hesablar Sistemi və onun metodoloji əsaslarını özündə əks etdirir. Məcmuədə 2005-2011-ci illərdə MDB ölkələri üzrə ümumi daxili məhsul (milli valyuta və ABŞ dolları ilə); ÜDM-də qeyri-dövlət bölməsinin payı; Milli Hesablar Sisteminin əsas göstəricilərindən olan və istehsal, xərclər və gəlirlər üsulları ilə hesablanmış ümumi daxili məhsul, eləcə də iqtisadiyyatın sektorları (bölmələri) üzrə mal və xidmətlərin istehsalı, gəlirlərin yaranması və bölüşdürülməsi barədə məlumatlar öz əksini tapmışdır. Məcmuə bütövlükdə ölkə iqtisadiyyatı və onun ayrı-ayrı sahələri və bölmələri üzrə 2005-2011-ci illər üçün hesablanmış - məhsul və xidmətlərin ümumi buraxılışı, son istehlak xərcləri, fərdi istehlak xərcləri, əsas fondların ümumi yığımı, ümumi və xalis mənfəət (qarışıq gəlirlər), mülkiyyətdən alınmış və verilmiş gəlirlər, ilkin gəlirlərin bölüşdürülməsi, sərəncamda qalan ümumi gəlir, ümumi qənaət, xalis kredit və borclar, “Qalan dünya” sektoru ilə aparılan əməliyyatlar, ölkə əhalisinin gəlirlər və xərcləri, ölkənini regionları üzrə məhsul(xidmətlər) buraxılışı barədə məlumatları əhatə edir.

Məcmuənin nəşr edilməsi cari ilin ikinci yarısında nəzərdə tutulub.

## AZƏRBAYCANIN SƏNAYESİ

“Azərbaycanın sənayesi” statistika məcmuəsinə son illərdə Azərbaycan Respublikası sənayesinin işini xarakterizə edən əsas statistik məlumatlar daxil edilmişdir. Məcmuədə sənaye sektoru - “mədənçıxarma sənayesi”, “emal sənayesi”, “elektrik enerjisi, qaz, buxar istehsalı, bölüşdürülməsi və təchizatı” və “su təchizatı; tullantıların təmizlənməsi və emalı” kimi fəaliyyət növləri əhatə olunur. Sənayenin ölkə iqtisadiyyatında yeri, istehsal

edilmiş məhsulun həcmi, məhsul istehsalına çəkilən xərclər, əsas fondlar, sənayedə çalışan işçilərin sayı və onların orta aylıq əmək haqqı, regionlar üzrə sənayenin əsas göstəriciləri, natura ifadəsində məhsul istehsalı və digər əsas göstəricilər üzrə statistik məlumatlar verilmişdir. Bundan əlavə, məcmuəyə Azərbaycan sənayesinin dünya və MDB ölkələrinin sənayesi ilə müqayisə etmək imkanını verən müxtəlif cədvəllər daxil edilmişdir.

Məcmuə iki dildə - azərbaycan və ingilis dillərində tərtib olunur və nəşr edilməsi cari ilin avqust ayında nəzərdə tutulub.

. 

## AZƏRBAYCANDA KİÇİK SAHİBKARLIQ

Məcmuə kiçik sahibkarlıq sub-yektlərinin fəaliyyətini, onların sahə və regionlar üzrə bölgüsünü əks etdirən, habelə hüquqi şəxslərlə yanaşı, kiçik sahibkarlıq subyekti hesab olunan fərdi sahibkarlar – fiziki şəxslərlə bağlı kompleks məlumatları əhatə edir. 2007-2011-ci illərdə kiçik sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəriciləri, ölkə iqtisadiyyatında payı, onların regionlar və fəaliyyət növləri üzrə bölgüsü, işçilərin sayı və əmək haqqı fondu, investisiya qoyuluşu, maliyyə göstəriciləri haqqında əsas məlumatlar əhatə olunur. Ayrı-ayrı göstəricilər fəaliyyət növləri, regionlar üzrə verilmiş, həmçinin hər bir region ayrılıqda göstərilməklə özündə əsas göstəriciləri birləşdirir.

Məcmuə iki dildə - azərbaycan və ingilis dillərində tərtib olunur və nəşr edilməsi cari ilin ikinci yarısında nəzərdə tutulub.

## AZƏRBAYCANDA TİKİNTİ

Statistik məcmuəyə Azərbaycan Respublikasının 1990-2011-ci illərdə tikintinin işini xarakterizə edən statistik göstəricilər daxil edilmişdir. Məhsul istehsalı və xidmət sahələri üzrə mühüm əhəmiyyətli güclərin istifadəyə verilməsi, əsas fondlar, əsas kapitala investisiyalar, əsas kapitala yönəldilmiş investisiyanın texnoloji quruluşu, tikinti sahəsində əlavə dəyərin ÜDM-də xüsusi çəkisi, ölkə ərazisində iqtisadiyyatın sahələri üzrə tikintinin aparılmasına verilmiş icazələr, tikinti-quraşdırma işlərində in-vesttisiyadan istifadə, mülkiyyət növləri üzrə investisiyadan istifadə, iqtisadiyyatın fəaliyyətdə olan sahələri üzrə investisiyadan istifadə edilməsi, əsas kapitala yönəldilmiş xarici və daxili investisiyalar, xarici ölkələr üzrə xarici investisiyalar, ölkənin iqtisadi zonaları üzrə tikintinin əsas göstəriciləri, iqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş xarici və daxili investisiya, neft və qeyri-neft sektoruna yönəldilmiş investisiyaların

dinamikası, ölkənin iqtisadi zonaları üzrə iri və orta müəssisələr və kiçik sahibkarlıq subyekti sayılan müəssisələr tərəfindən əsas kapitala yönəldilmiş investisiyalar, sosial-mədəni obyektlərin istifadəyə verilməsi, tikinti işlərinin həcmi, tikintidə çalışan işçilərin sayı və onların orta aylıq əmək haqqı, məhsul istehsalına çəkilən xərclər, əsas növ tikinti materialları, məmulat və konstruksiyaların respublika üzrə orta pərakəndə satış qiymətləri və digər əsas göstəricilər haqqında məlumat verilmişdir. Bundan əlavə məcmuəyə Azərbaycanın tikintisini MDB ölkələri ilə müqayisə etmək imkanı verən müxtəlif cədvəllər daxil edilmişdir.

Məcmuənin nəşr edilməsi cari ilin iyul ayında nəzərdə tutulub.

## AZƏRBAYCANIN ENERGETİKASI

**"Azərbaycanın energetikası"** statistik məcmuəsi 2000-2011-ci illəri əhatə etməklə, energetika sektoru üzrə əsas iqtisadi göstəriciləri, enerjisinin səmərəliliyinə dair göstəriciləri, enerji məhsullarının istehsalı, istehlakı və ehtiyatları haqqında məlumatları, enerji və ayrı-ayrı enerji məhsullarının (əmtəə) balanslarını özündə əks etdirir.

Məcmuə 2 əsas hissədən ibarətdir:

I hissədə Beynəlxalq standartlara uyğun tərtib olunmuş 2007-2011-ci illəri əhatə edən Milli enerji balansları və əmtəə balansları;

II hissədə 2000-2006-cı illərdə yanacaq-enerji balansları, iqtisadi fəaliyyət növləri üzrə enerji məhsullarının istehlakı, ayrı-ayrı enerji məhsulları üzrə balanslar və digər məlumatlar verilmişdir.

Məcmuədə istifadəçiləri statistik məlumatlarla daha yaxşı təmin etmək məqsədi ilə rəngli diaqram və xəritələr təqdim olunmuş, həmçinin enerji balansının tərtib olunmasına dair qısa metodoloji izahatlar verilmişdir. Məcmuə iki dildə - azərbaycan və ingilis dillərində tərtib olunur və nəşr edilməsi cari ilin ikinci yarısında nəzərdə tutulub.

## AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATI

**"Azərbaycanın kənd təsər-rüfatı"** statistik məcmuəsi uzun bir dövrü əhatə edir və bir sıra mühüm göstəricilər üzrə məlumatların dinamikası verilir. Məcmuə əhali və ərazi, suvarılan torpaqlar, məşğul olan əhalinin, ümumi daxili məhsulun, kapital qoyuluşlarının və s. iqtisadiyyat sahə-ləri üzrə bölgüsü, kənd təsərrüfatının ümumi məhsulu, əsas kənd təsərrüfat bitkilərinin əkin sahəsi, məhsul istehsalı və məhsuldarlığı, mal-qara və quşların sayı, əsas heyvandarlıq məhsullarının istehsalı, kənd təsərrüfatı müəssisələrinin satdıqları məhsulların qiyməti və s. barədə məlumatları əhatə edir.

Məcmuədə ölkə üzrə məlumatlarla yanaşı bitkiçiliyə və heyvandarlığa dair əsas məlumatlar rayonlar üzrə də verilir.

Bundan başqa məcmuəyə MDB ölkələri üzrə bəzi məlumatlar da daxil edilib.

Məcmuənin nəşr edilməsi cari ilin ikinci yarısında nəzərdə tutulub.

## KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNİN VƏ FƏRDİ SAHİBKAR TƏSƏRRÜFATLARININ ƏSAS İQTİSADİ GÖSTƏRİCİLƏRİ

**"Kənd təsərrüfatı müəssisə-lərinin və fərdi sahibkar təsərrü-fatlarının əsas iqtisadi göstəriciləri"** məcmuəsi 2000-2010-cu illəri əhatə etməklə kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının məlumatları əsasında hazırlanmışdır. Məcmuədə ümumi torpaq sahəsi, kənd təsərrüfatına yararlı torpaq sahəsi, ümumi gəlir, müəssisələrin ümumi sayı, onlarda çalışan işçilərin orta illik sayı, əmək məhsuldarlığı və s. barədə məlumatlar verilir.

Məcmuəyə eyni zamanda ayrı-ayrı məhsul növləri üzrə maya dəyəri, satış qiyməti, əmək məsarifi, rentabellik səviyyəsi, istehsala çəkilən xərclərin strukturu və sairə göstəricilər barədə məlumatlar da daxil edilmişdir.

Məcmuənin nəşr edilməsi cari ilin avqust ayında nəzərdə tutulub.

## AZƏRBAYCANDA ƏTRAF MÜHİT, MEŞƏÇİLİK, BALIQÇILIQ VƏ OVÇULUQ TƏSƏRRÜFATLARI

**"Azərbaycanda ətraf mühit, meşəçilik, balıqçılıq və ovçuluq təsərrüfatları"** statistik məcmuəsi ətraf mühitin vəziyyəti, təbii resursların mövcudluğu və onlardan istifadə təbiətin mühafizəsinə çəkilən xərclər, meşəçilik, balıqçılıq və ovçuluq təsərrüfatlarının ümumi məhsulu, əsas istehsal fondlarının dəyəri, meşə fondu torpaqlarında meşə bərpa tədbirləri, vətəgələrdə balıq körpələrinin təbii su hövzələrinə və anbarlarına buraxılması, kvota üzrə ovlanmış balıq, ov quşlarının, dırnaqlıların və xəzli heyvanların baş sayı və sairə barədə məlumatları əhatə edir.

Məcmuədə bəzi məlumatlar ölkənin iqtisadi rayonları üzrə öz əksini tapır. Məcmuə azərbaycan və ingilis dillərində tərtib olunur və nəşr edilməsi cari ilin iyul ayında nəzərdə tutulub.

# AZƏRBAYCANDA TİCARƏT

Statistik məcmuədə 2007-2011-ci illərdə ticarət sahəsinin iqtisadi inkişafını xarakterizə edən əsas statistik göstəricilər əks olunmuşdur. Məcmuə pərakəndə ticarət və topdansatış əmtəə dövriyyələrinin ərazi bölgələri, mülkiyyət formaları, əmtəə növləri üzrə əsas göstəricilərini əhatə edir. Eyni ilə məcmuədə pərakəndə ticarət dövriyyəsinin makrostrukturuna, ticarət təşkilatlarının mal ehtiyatlarına, adambaşına düşən pərakəndə əmtəə dövriyyəsinə, ticarət şəbəkələrinin sayına, uzun müddət istifadə olunan mədəni-məişət və təsərrüfat əşyalarının satışına dair göstəricilər öz əksini tapmışdır.

Statistik məcmuəyə ticarət sahəsinin ümumi buraxılış, aralıq istehlak, əlavə dəyərə dair məlumatlar da daxil edilmişdir.

Bu sahədə əsas fondların mövcudluğu və istifadəyə verilməsi, investisiyadan istifadə eidilməsi, məşğul olan əhalinin sayı, bir işçiyə düşən orta aylıq nominal əmək haqqı, yeni açılmış iş yerlərinə dair məlumatlar, isehlak qiymətləri üzrə indekslər və sair göstəricilər öz əksini tapmışdır.

Məcmuə iki dildə - azərbaycan və ingilis dillərində tərtib olunur və nəşr edilməsi cari ilin iyul ayında nəzərdə tutulub.

# AZƏRBAYCANIN XARİCİ TİCARƏTİ

Statistik məcmuəyə Azərbaycan Respublikasının 2007-2011-ci illərdə xarici ölkələrlə ticarət əlaqələrinə dair göstəriciləri daxil edilmişdir.

Xarici ticarət statistikasında məlumatların quruluşu əmtəələrin təsnifatının beynəlxalq harmonlaşdırılmış sisteminə əsasən tərtib edilir. Statistik məcmuəyə ölkələr, mal qrupları, əməliyyat növləri, mühüm mallar, Gömrük idarələri, nəqliyyat növləri, Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə idxal və ixraca dair göstəricilər, eyni ilə idxal və ixracın coğrafi quruluşuna dair məlumatlar daxil edilmişdir.

Malların dəyəri ABŞ dolları ilə ifadə olunmuşdur, ABŞ dollarının orta məzənnəsi Mərkəzi Bankın rəsmi məlumatlarına əsaslanır.

Məcmuə iki dildə-azərbaycan və ingilis dillərində tərtib olunur və nəşr edilməsi cari ilin iyul ayında nəzərdə tutulub.

## AZƏRBAYCANDA TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT

Statistik məcmuədə Azərbaycan Respublikasında 2000, 2005-2011-ci illərdə təhsil, elm və mədəniyyətin vəziyyəti haqqında məlumatlar əks olunur.

“Təhsil” bölməsində məktəbəqədər, məktəbdənkənar, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil müəssisələri haqqında məlumatlar verilir.

“Elm” bölməsinə elmi-tədqiqat və işləmələri yerinə yetirən müəssisələrin, onlarda işçilərin sayı və tərkibi, elmi kadrların hazırlanması, yerinə yetirilmiş elmi-texniki işlərin həcmi, tədqiqat və işləmələrə çəkilən xərclər, tədqiqat və işləmələrdə istifadə olunan əsas vəsaitlər haqqında məlumatlar daxil edilir.

“Mədəniyyət” bölməsində kütləvi kitabxanalar, klub müəssisələri, muzeylər, teatrlar, konsert təşkilatları, kinoteatrlar, sirk, zoopark, mədəniyyət və istirahət parkları haqqında məlumatlar öz əksini tapır.

Bundan əlavə məcmuədə regionlar üzrə məlumatlar da dərc etdirilir.

Məcmuə azərbaycan və ingilis dillərində tərtib olunur və nəşr edilməsi cari ilin iyul ayında nəzərdə tutulub.

## AZƏRBAYCANDA SƏHİYYƏ, SOSİAL TƏMİNAT VƏ MƏNZİL ŞƏRAİTİ

Statistik məcmuədə Azərbaycan Respublikasında müalicə-profilaktika müəssisələrinin şəbəkəsi, əhalinin xəstəlik sinifləri üzrə xəstələnməsi və ayrı-ayrı xəstəliklərin lokalizasiyalar üzrə bölgüsü, doğum, abort, sanatoriyalar, pansionatlar və istirahət evləri, bədən tərbiyyəsi və idmanın inkişafı, pensiya təminatı, sosial müavinətlər, aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardımı, ilkin əlillik, qocalar və əlillər üçün internat evlərinin fəaliyyətini, əhalinin mənzil şəraitini səciyyələndirən informasiya verilir.

Məcmuədə bəzi məlumatlar ölkənin iqtisadi rayonları üzrə öz əksini tapır. Məcmuə azərbaycan və ingilis dillərində tərtib olunur və nəşr edilməsi cari ilin iyul ayında nəzərdə tutulub.

## AZƏRBAYCANDA CİNAYƏTKARLIQ VƏ HÜQUQPOZMALAR

**“Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar”** adlı statistik məcmuə ölkədə hüquqi statistikanın ümumiləşdirilmiş məlumatlarını özündə əks etdirir.

Məcmuədə 2011-ci ildə Azərbaycan Respublikasının hüquq mühafizə sisteminin fəaliyyətinin nəticələrini ötən illərlə müqayisəli şəkildə xarakterizə edən əsas göstəricilər verilir.

Göstəricilər Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Ədliyyə Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin və Prokurorluq orqanlarının məlumatları əsasında hazırlanır.

Məcmuə qeydə alınmış cinayətləri, cinayət törətmiş şəxsləri, məhkum olunanları, prokurorluq orqanlarının işini, yol-nəqliyyat hadisələrini, baş vermiş yanğınları, narkotik maddələrlə bağlı, iqtisadi sahədə, 14-18 yaşadək uşaqlar arasında və Azərbaycan Respublikasının regionlarında cinayətkarlığı, eləcə də digər məlumatları xarakterizə edən bir sıra göstəriciləri 1995, 2000-2011-ci illər üzrə özündə cəmləşdirir.

Məcmuə azərbaycan və ingilis dillərində tərtib olunur və nəşr edilməsi cari ilin iyun ayında nəzərdə tutulub.

## AZƏRBAYCANDA TURİZM

Statistik məcmuədə 2006-2011-ci illərdə Azərbaycan Respublikasında turizm və mehmanxana və mehmanxana tipli müəssisələrin iqtisadi göstəricilərini əks etdirən məlumatlar verilmişdir.

Məcmuədə turizm fəaliyyəti ilə məşğul olan müəssisələrin, mehmanxana və mehmanxana tipli müəssisələrin sayı, onlarda çalışan işçilərin sayı, əldə etdiyi gəlir və turizm fəaliyyətinə çəkilən xərclər, ölkə daxilində və ölkədən kənarda səyahət üçün satılmış turizm yollayışı blanklarının sayı və dəyəri barədə məlumatlar əks olunmuşdur. Məlumatlar rayonlar (şəhərlər), iqtisadi rayonlar və mülkiyyət növləri üzrə verilmişdir.

Məcmuəyə həmçinin, ölkələr üzrə Azərbaycana gələn və gedən xarici ölkə vətəndaşlarının sayı, sanatoriyalar, istirahət və turizm bazaları, mədəniyyət ocaqlarının əsas göstəriciləri, iaşə dövriyyəsi, iaşə dövriyyəsi nin iqtisadi rayonlar üzrə strukturu, fiziki həcm indeksləri, adambaşına düşən iaşə dövriyyəsi və s. haqqında məlumatlar da daxil edilmişdir. Məcmuə geniş oxucu kütləsi, iqtisadçılar, statistiklər, elmi işçilər və digər istifadəçilər üçün nəzərdə tutulmuşdur.

Məcmuə iki dildə-azərbaycan və ingilis dillərində tərtib olunur

Məcmuənin nəşr edilməsi cari ilin iyun ayında nəzərdə tutulub.

## AZƏRBAYCANIN NƏQLİYYATI

**“Azərbaycanın nəqliyyatı”** statistika məcmuəsində ölkənin yol-nəqliyyat kompleksinin vəziyyətini xarakterizə edən əsas statistik məlumatlar, nəqliyyatın infrastrukturu, onun inkişaf dinamikası və əvvəlki illərlə müqayisəsi əhatə olunur. Məcmuədə ayrı-ayrı nəqliyyat növləri üzrə daşınmış yüklərin həcmi, yük dövriyyəsi, sərnişin daşınması, sərnişin dövriyyəsi, nəqliyyat fəaliyyətindən əldə olunmuş gəlir və daşımalara çəkilən xərclər, nəqliyyata yönəldilmiş investisiyalar, istifadəyə verilmiş əsas fondlar, nəqliyyat müəssisələrində çalışan işçilərin sayı və onların orta aylıq nominal əmək haqqı, ayrı-ayrı nəqliyyat növlərinin vəziyyətini xarakterizə edən digər məlumatlar əhatə olunur. Müqayisə etmək üçün bir sıra ölkələr, o cümlədən MDB üzrə məlumatlar, habelə nəqliyyat vasitələrinin ilkin qeydiyyatı, minik avtomobillərin markalarına görə bölgüsü, ölkənin regionları üzrə avtomobil nəqliyyatının işi və yollar haqqında məlumatlar əks etdirilmişdir.

Məcmuə iki dildə - azərbaycan və ingilis dillərində tərtib olunur və nəşr edilməsi cari ilin iyul ayında nəzərdə tutulub.

## AZƏRBAYCANDA TELEKOMMUNİKASİYA VƏ POÇT

“**Azərbaycanda telekommunikasiya və poçt**” statistika məcmuəsində ölkə rabitəsinin vəziyyətini xarakterizə edən əsas statistik məlumatlar verilir. Rabitənin infrastrukturu, inkişaf dinamikası və əvvəlki illərlə müqayisəsi məcmuədə əks olunur. Məcmuədə telefon rabitəsi, poçt rabitəsi, televiziya və radiorabitə, qeyri-dövlət sektorunun inkişafı, rabitə müəssisələrində çalışan işçilərin sayı və onların orta aylıq əmək haqqı, ölkənin regionları üzrə rabitənin vəziyyəti, əhalinin telefon təminatı haqqında habelə informasiya texnologiyaları üzrə məlumatlar əks olunmuşdur. Müqayisə etmək üçün bir sıra MDB ölkələri üzrə məlumatlar, habelə ölkənin regionları üzrə əsas göstəricilər verilir. Məcmuə iki dildə - azərbaycan və ingilis dillərində tərtib olunur və nəşr edilməsi cari ilin iyul ayında nəzərdə tutulub.

## AZƏRBAYCANDA İNFORMASİYA CƏMİYYƏTİ
### İnformasiya və Kommunikasiya Texnologiyaları

Ölkədə informasiya cəmiyyətinin qurulması istiqamətində informasiyanın istehsalı, yayılması və istifadəsində texnologiyalarının tətbiqinin mövcud vəziyyətini xarakterizə edən statistika məlumatları

**"Azərbaycan-da İnformasiya Cəmiyyəti"** məcmuəsinin əsasını təşkil edir. Məcmuədə beynəlxalq standartlara uyğun əsas İKT göstəriciləri üzrə statistika müşahidələri vasitəsilə toplanmış məlumatlar, o cümlədən İKT-nin əsas infrastruktur göstəriciləri və onlara giriş imkanları, ev təsərrüfatlarında İKT sistemlərinin mövcudluğu və istifadə olunması, müəssisələr (biznes statistikası üzrə) üzrə əsas İKT göstəriciləri, İKT sektoru və İKT məhsullarının ticarəti üzrə əsas göstəricilər əks olunur. Statistika külliyatında İKT-nin inkişaf indeksi kimi yeni göstəricilər əlavə edilmiş, ev təsərrüfatlarında, müəssisələrdə son illər ərzində kompüterlərin mövcudliğu və onlardan istifadə olunması, internetə çıxış imkanları, istifadəsi, əhalinin elektron bilikləri, habelə İKT sektoru üzrə əsas makro göstəricilər və İKT məhsullarının idxal və ixracı haqqında geniş məlumatlar, onların dinamikası əks olunur.

Məcmuə iki dildə - azərbaycan və ingilis dillərində tərtib olunur və nəşr edilməsi cari ilin iyul ayında nəzərdə tutulub.

## AZƏRBAYCANDA QİYMƏTLƏR

**"Azərbaycanda qiymətlər"** statistik məcmuəsi 2002-ci ildən başlayaraq iki dildə - azərbaycan və ingilis dillərində nəşr edilir və 1996-ci ildən sonrakı dövrü əhatə edir.

**İstehlak qiymətləri indeksi (İQİ)** – orta alıcılıq qabiliyyətli alıcının aldığı malların və istifadə etdiyi xidmətlərin qeydə alınmış məcmusunun dəyərinin ümumi dəyişməsini səciyyələndirən nisbi göstəricidir. İQİ-nin başlıca təyinatı istehlak mallarının və xidmətlərin qiymət dinamikasının müəyyənləşdirilməsidir. İQİ-istehlak sektorunda inflyasiyanın səviyyəsini xarakterizə edir və milli hesablar sisteminin göstəricilərinin müəyyənləşdirilməsində ümumi daxili məhsulun son istifadəsini ən mühüm komponentlərindən olan ev təsərrüfatlarının son istehlakına çəkilən xərclərin sabit qiymətlərdə hesablanmasında, eləcə də əhalinin gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsində istifadə olunur.

**Sənaye məhsulları istehsalçılarının qiymət indeksi (SQİ)** – hər il yenilənən baza sənaye müəssisələri və təşkilatlarının təmsilçi mallarının qiymət qeydiyyatı əsasında hesablanılır. Sənaye məhsulları istehsalçılarının qiymət indeksi həm məhsullar, həm də iqtisadi fəaliyyət növlərinə görə qiymət indekslərinin hesablanmasına imkan verən beynəlxalq metodologiyaya uyğun işlənir.

**Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri indeksi (KTQİ)** – kənd təsərrüfatı müəssisələri, fermer təsərrüfatları və ev təsərrüfatları tərəfindən müxtəlif kanallar üzrə realizə edilən kənd təsərrüfatı məhsullarının qiymətlərinin səviyyəsi və dinamikasını

xarakterizə edir. Kənd təsərrüfatı məhsullarının qiymətləri üzərində müşahidə kənd təsərrüfatı müəssisələri, kəndli (fermer) təsərrüfatları və ev təsərrüfatlarının seçmə şəbəkəsi üzrə həyata keçirilir. Alınmış məlumatlar kənd təsərrüfatı məhsullarının realizə şərtlərinin dəyişməsinin təhlilində və kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin dəyişməsində qiymətin rolunun aydınlaşmasında istifadə edilir.

**Tikinti işlərinin qiymət indeksi** – "Tikinti" iqtisadi fəaliyyət növünü xarakterizə edən qiymət statistikası sisteminin göstəricilərindən biri hesab olunur və "tərkib elementləri" metodu ilə hesablanır. Tikintidə qiymətlərin dinamikası üçün ən vacib, tipik tikinti işlərinin (xidmətlərinin) - yerüstü tikililərdə, yol və körpü tikintisində həyata keçirilən tikinti işləri (xidmətləri) qiymətlərinin müayinəsi və qeydiyyatı aparılır.

**Nəqliyyat, poçt və telekommunikasiya tarifləri indeksləri** – nəqliyyat, poçt və telekommunikasiya tarifləri indeksləri bu xidmət növləri üzrə tariflərin dəyişmə templərinin qiymətləndirilməsi və həmçinin, ümumi daxili məhsulun (ÜDM) artma (azalma) tempinin hesablanması, deflyator indekslərinin və digər makroiqtisadi göstəricilərin müəyyən edilməsi üçün nəzərdə tutulmuşdur. Onlar nəqliyyat, poçt və telekommunikasiya müəssisələrinin yükdaşıma, sərnişindaşıma, poçt və telekommunikasiyadan əldə etdikləri gəlirlərdəki qiymət (tarif) amilinin xarakterizə edilməsi üçün istifadə edilir. Bu indekslərdən makro səviyyədə proqnozların verilməsi və müxtəlif iqtisadi hesablamaların aparılması zamanı tətbiq edilir. Nəqliyyat, poçt və telekommunikasiya tarifləri indeksləri iqtisadi fəaliyyət növlərinə uyğun olaraq nəqliyyatda yükdaşıma tarifləri indeksini, nəqliyyatda sərnişindaşıma tarifləri indeksini, poçt və kuryer tarifləri indeksini və həmçinin telekommunikasiya tarifləri indeksini özündə birləşdirir.

**İxrac və idxal olunan əmtəələrin qiymət indeksləri** – xarici ticarət sektorunun fəaliyyətini xarakterizə edən əsas statistik göstəticilərdən biridir.

İdxal (ixrac) edilən əmtəələrin qiymət indeksləri milli gəlirin, milli hesablar sisteminin və tədiyə balansının əsas aqreqatlarının təyin edilməsində deflyator rolunu oynayır

İdxal (ixrac) qiymət indeksləri idxal və ixrac edilən müxtəlif əmtəələrin cari dövrdəki qiymət səviyyəsinin əvvəlki dövrdəki qiymət səviyyəsinə nisbətən dəyişməsini göstərən nisbi statistik göstəricidir.

İxrac edilən əmtəələrin qiymət indeksləri - ölkədə istehsal olunan və digər ölkələrə göndərilən əmtəələrin qiymətlərinin dəyişməsini səciyyələndirir.

İdxal olunan əmtəələrin qiymət indeksləri- ölkənin ehtiyaclarını ödəmək üçün dünya ölkələrindən gətirilən əmtəələrin qiymətlərinin dəyişməsini əks etdirir.

Məcmuənin nəşr edilməsi cari ilin birinci yarısında nəzərdə tutulub.

## AZƏRBAYCANIN ƏRZAQ BALANSLARI

İllik statistik məcmuə 2009-cu ildən hazırlanır və nəşr edilir. Məcmuədə 2007-ci ildən başlayaraq ərzaq təyinatlı kənd təsərrüfatı və yeyinti sənayesi müəssisələrinin məhsullarının ehtiyatları: ilin əvvəlinə qalıq, istehsalı və idxalına; mövcud ehtiyatlardan istifadə təyinatları: ərzaq ehtiyaclarının ödənilməsi, ərzaq və qeyri-ərzaq məhsullarının istehsalı, toxum və mal-qara yemi üçün istifadələr, ixrac edilən məhsullar, habelə itkilər və ilin sonuna qalıqlara dair statistik məlumatlar öz əksini tapır.

**“Azərbaycanda ərzaq balansları”** adlı statistik məcmuə VI bölmədən ibarətdir: bitkiçilik məhsullarının balansları; heyvandarlıq məhsullarının balansları; sənaye mənşəli ərzaq məhsullarının balansları; ərzaq məhsullarının adambaşına istehlak göstəriciləri; beynəlxalq müqayisə; metodoloji izahlar verilir. Birinci üç bölmədə müvafiq məhsulların balans göstəriciləri üzrə məlumatlar mütləq kəmiyyətlər ilə verilir, müvafiq göstəricilər üzrə orta illik və əvvəlki ilə nisbətən nisbi artım, ehtiyatlar və istifadələrin tərkib elementlərinin xüsusi çəkisi verilir. Dördüncü bölmədə adambaşına illik və gündəlik istehlaka dair orta kəmiyyətlərlə yanaşı, Azərbaycan Hökuməti tərəfindən təsdiq edilmiş minimum istehlak səbəti üzrə əsas növ ərzaq məhsullarının istehlak normaları, milli iqtisadiyyatın özünütəminetmə və idxaldan asılılıq səviyyəsi, dünya ölkələri üzrə yeyinti məhsullarının istehlakı, Azərbaycanda əhalinin adambaşına gündəlik istehlak etdiyi ərzaq məhsullarının kaloriliyi və kimyəvi tərkibinə dair statistik məlumatlar (nisbi və orta kəmiyyətlərlə) verilir.

Məcmuənin nəşr edilməsi cari ilin ikinci yarısında nəzərdə tutulub.

## TƏSNİFATLAR *

**İqtisadi Fəaliyyət Növləri Təsnifatı** - Özündə bütün iqtisadi fəaliyyət növlərini cəmləşdirir. İstehsal fəaliyyəti və ya iqtisadi fəaliyyət müəyyən əmtəə və ya xidmətlərin istehsal edilməsinə kömək edən vasitələrin (avadanlığın, işçi qüvvəsinin, istehsal prosesinin, informasiya şəbəkəsinin, məhsul növlərinin) qarşılıqlı əlaqəsindən irəli gəlir. Fəaliyyət məhsul (əmtəə və xidmətlərin) məsrəfi, istehsal prosesi və məlumat istehsalı ilə xarakterizə olunur.

**Məhsul Növləri Təsnifatı -** MNT-nın təsnifləşdirmə obyekti məhsul və xidmətlər hesab edilir. MNT istehsal və istehlak olunan məhsulları, göstərilən və tələb olunan xidmətləri təsvir etmək üçün nəzərdə tutulmuşdur. MNT ABFT ilə birlikdə vahid kod sistemində birləşmiş vahid əşya təsnifatını yaradır.

**Sənaye Məhsullarının Siyahısı (Prodcom) -** Abreviatura PRODCOM Avropa Birliyinin hasiledici və yüngül sənaye məhsullarına aid olan statistik siyahını əks etdirir. Bu təsnifata xidmət sahəsi daxil edilmir. Burada söhbət ancaq sənaye məhsulları təsnifatından gedir. Qəbul olunmuş qərara müvafiq olaraq Avropa Birliyinə üzv dövlətlərdə istehsal və istifadə olunan məhsulların yeni statistikası bu təsnifata əsaslanır.

**Xərclərin Məqsədlər Üzrə Təsnifatları** – Özündə 4 təsnifatı əks etdirir.

**Dövlət idarəetmə orqanlarının funksiyalarının təsnifatı -** DİOFT-nın əsas tətbiq sahələrindən biri fərdi ev təsərrüfatlarının xeyrinə sərf edilən və 1993-cü ilin MHS-nə əsasən ev təsərrüfatlarının son istehlakının (və ya fərdi istehlakın) ümumiləşdirilmiş faktiki həcminin alınması üçün ŞİMT-nın 14-cü bölməsinə köçürülən istehlaka yönəldilmiş xərclərin müəyyənləşdirilməsidir. Bu təsnifatda belə xərcləri özündə birləşdirən bölmələr, qruplar və altqruplar dəqiq verilmişdir.

**Ev təsərrüfatlarında şəxsi (fərdi) istehlak məqsədləri üçün istifadə edilən mal, məhsul və xidmətlərin təsnifatı -** Ev təsərrüfatlarında şəxsi (fərdi) istehlak məqsədləri üçün istifadə edilən mal, məhsul və xidmətlərin təsnifatının işlənib hazırlanmasında əsas məqsəd Azərbaycan Respublikasının milli hesablar sistemi metodologiyasına və Avropa statistika komissiyasının ev təsərrüfatlarının büdcə tədqiqatlarının harmonizasiya edilməsi üzrə tövsiyələrinə (Avropa Statistika Bürosu, 1997) uyğun olaraq statistika məlumatlarının toplanması, işlənməsi və təqdim olunması üçün standartlar yaratmaqdan ibarətdir.

**Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının məqsədlər üzrə təsnifatı -** MHS-93-də ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının bütün xərclərinin fərdi istehlaka aid edilməsi qəbul edilmişdir. Təsnifatın əsas məqsədi MHS-1993-ə (bax. bölmə 35 və 36, yuxarı) əsasən ev təsərrüfatlarının faktiki son istehlakı (və ya faktiki fərdi istehlakı) üzrə iriləşdirilmiş məlumatlar almaq üçün, ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının xərclərini və ev təsərrüfatlarının fərdi istehlakı və dövlət idarəetmə orqanlarının məqsədli xərclərinə müvafiq olaraq təsnifləşdirməkdən ibarətdir.

**Məqsədlər üzrə istehsalçıların xərcləri təsnifatı -** MİXT və məqsədlər üzrə digər təsnifatlar təhlildə iki müxtəlif rol oynayırlar. Birinci

rol xərclərin sektorlar arası təhlilinin, ikincisi isə sektordaxili təhlilinin təmin edilməsindən ibarətdir. Birinci halda məqsədlər üzrə təsnifatlar köməkçi təhlillərin müxtəlif növlərinin həyata keçirilməsi zamanı istifadə edilir və yalnız iqtisadi siyasət məsələlərinin həll edilməsində əsas rol oynayan kapitallaşdırılmamış cari əməliyyat xərclərinə tətbiq edilir.

**Dünya Ölkələri Təsnifatı** – Bu təsnifat Birləşmiş Millətlər Təşkilatının Katibliyinin Statistika Şöbəsi tərəfindən hazırlanmış və 1970-ci ildə nəşr olunmuş Birləşmiş Millətlər Təşkilatı ölkələrinin Standart kodlarının (Seriya M, N49) yenidən baxılmış beşinci variantı əsasında hazırlanmışdır. Təsnifatda ölkə və rayonların adları əlifba sırası ilə verilmiş, BMT Katibliyinin Statistika şöbəsi tərəfindən statistik məqsədlər üçün istifadə edilən üçrəqəmli rəqəm kodları, Beynəlxalq standartlaşdırma təşkilatı (BST) tərəfindən verilmiş iki və üç hərfdən ibarət olan kodlar və ölkə və rayonların adının qısaldılmış formaları Statistika şöbəsi tərəfindən istifadə edilən 12-işarəli qısaltmalar şəklində göstərilmişdir.

**Məşğulluq Təsnifatı** – Məşğulluq Təsnifatı (MT) özündə sistemləşdirilmiş əmək fəaliyyəti növlərinin siyahısını cəmləşdirir. Bu siyahı statistik müqayisələrin, uçot və təhlillərin aparılmasında böyük rol oynayır. Məşğulluq Təsnifatı (MT) sosial - əmək münasibətlərinin nizamlanmasına toxunan və işçi qüvvəsinin strukturunun dəyişmə vəziyyətinin və dinamikasının qiymətləndirilməsi ilə bağlı, məşğulluq və peşəkar təhsil sahəsində göstəricilərin təhlili və proqnozları ilə bağlı geniş dairəli məsələləri həll etmək üçün nəzərdə tutulmuşdur.

**Bina və Qurğuların Funksional Təyinat Üzrə Təsnifatı** – Avropa Birliyinin statistika idarəsi tərəfindən qəbul edilən “Tikinti təsnifatı” (CC) əsasında işlənib hazırlanmışdır. Təsnifat əsasən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin müvafiq şöbələri və tikinti - quraşdırma işləri ilə məşğul olan müəssisə və təşkilatların xidməti istifadəsi üçün nəzərdə tutulmuşdur.

**Ölçü Vahidlərinin Təsnifatı** – Ölçü Vahidləri Təsnifatının əsas məqsədi dövlət uçotu və hesabatlarının tətbiqi, iqtisadiyyatın inkişafının təhlili və proqnozlaşdırılması, beynəlxalq statistik müqayisələrin təminatı, daxili və xarici ticarətin həyata keçirilməsi, xarici iqtisadi fəaliyyətin dövlət tərəfindən nizamlanması və gömrük nəzarətinin təşkil edilməsində texniki – iqtisadi və sosial göstəricilərin sayla qiymətləndirilməsi məsələlərinin həllindən ibarətdir. Ölçü Vahidləri Təsnifatının obyekti kimi hər hansı fəaliyyət sferasında istifadə olunan ölçü vahidləri hesab edilir.

**İqtisadiyyat Sektorları Təsnifatı** – Bazar iqtisadiyyatı şəraitində milli gəlirin hesablanması Milli hesablar sistemi üzərində qurulub. Milli hesablar iqtisadiyyatı təşkil edən təsərrüfat subyektlərinin əsas funksiyaları, onların gəlirləri və ehtiyatlarının əsas mənbələri baxımından beş qrupda birləşdirilib. Bu qruplar milli iqtisadiyyatın sektorları adlanır.

**Mülkiyyət Formaları Təsnifatı** – "Mülkiyyət növlərinin statistik təsnifatı" 12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinə istinad edilərək hazırlanmışdır. Özündə mülkiyyət formalarını birləşdirir. Statistik baximdan əsasən hüquqi və fiziki şəxslərin mülkiyyətinin aydınlaşdırılmasında böyük rol oynayır.

**Təşkilati Hüquqi Formalar Təsnifatı** – Mülki Məcəlləyə müvafiq olaraq işlənib hazırlanmışdır. Statistik baximdan əsasən hüquqi və fiziki şəxslərin mülkiyyətinin aydınlaşdırılmasında böyük rol oynayır.

**İnzibati Ərazi Bölgüsü Təsnifatı** – Təsnifatın hazırlanmasında əsas məqsəd son illər Azərbaycan Respublikasının inzibati ərazi bölgüsündə baş vermiş qanuni dəyişikliklərin nəzərə alınması və İnzibati - ərazi bölgüsü təsnifatının aktuallaşdırılmasıdır. Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünü hüdudlarında dövlət hakimiyyəti orqanlarının yaradıldığı inzibati ərazi dairələri təşkil edir.

**Nəqliyyat Statistikası üçün Yük Təsnifatı** - əsas etibarilə Avropa İqtisadi Birliyinin xarici ticarətlə bağlı təsnifatına (NİMEXE) əsaslanaraq hazırlanmışdır. Eyni zamanda o, Avropada nəqliyyat statistikası üçün Əmtəə təsnifatı (CSTE), Malların təsviri və kodlaşdırılmasının Harmonik Sistemi (HS), Standart Beynəlxalq Ticarət Təsnifatı (SİTC), Gömrük tarifi təsnifatı (CCT) ilə əlaqəli hazırlanmışdır.

**Azərbaycanın Milli Təhsil Təsnifatı** – Bu nəşrin məqsədi, ölkənin təhsil sistemində milli tədris proqramlarının bölgüsünün YUNESCO-nun Təhsilin Beynəlxalq Standart Təsnifatının (İSCED 97) dərəcə və sahələri üzrə aparılmasından ibarətdir.

**Dövlət Hakimiyyəti Orqanlarının və İdarəetmə Hüquqlu Təşkilatların Statistik Təsnifatı (siyahısı)** – Dövlət hakimiyyəti orqanlarının və idarəetmə hüquqlu təşkilatların statistik təsnifatı (siyahısı) (DHOİHTST(S)) texniki-iqtisadi və sosial məlumatların vahid təsnifləşdirmə və kodlaşdırma sisteminə daxildir. Yerli özünüidarəetmə orqanlarının qarşılıqlı iqtisadi əməkdaşlıq üçün yaradılmış könüllü birlikləri

(assosiasiyalar), ictimai birliklər və dini qurumlar, beynəlxalq təşkilatlar və onların Azərbaycandakı qurumları da bu təsnifatda yer tapmışdır. Bu obyektlər Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları olmasalar da, təsnifata daxil edilmişlər.

**Valyutalar təsnifatı -** Təsnifatda beynəlxalq valyuta termini barədə əsaslı məlumatlar toplanmışdır. Valyutalar təsnifatının bu nəşri özündə Valyuta və valyuta sərvətləri, Valyutaların təsnifləşməsi, Azərbaycan manatı və Valyutaların siyahısı kimi dörd əsas xətti birləşdirir və hər dörd bölmə haqqında istifadəçiyə ətraflı məlumat çatdırılır. Valyutaların təsnifləşməsi bölməsi öz növbəsində mənsub olma prinsipi, tətbiq etmə dairəsi və rejimi, valyutaların funksional rolu üzrə təsnifləşmə metodlarını izah edir.

**Bələdiyyələrin Statistik Ərazi Təsnifatı** – Bələdiyyələrin statistik ərazi təsnifatında hər bir bələdiyyənin adı və həmin bələdiyyənin əhatə etdiyi ərazi vahidlərinin və onların müvafiq kodlarının siyahısı verilmişdir.

**Fəaliyyət, Əlillik və Sağlamlıq üzrə Beynəlxalq Təsnifatın Uşaqlar və Yeniyetmələr nəşri** - Fəaliyyət, Əlillik və Sağlamlıq üzrə Beynəlxalq Təsnifatın Uşaqlar və Yeniyetmələr nəşri (FƏSBT-UY) Fəaliyyət, Əlillik və Sağlamlıq üzrə Beynəlxalq Təsnifat (FƏSBT) (Ümumdünya Səhiyyə Təşkilatı, 2001) əsasında hazırlanmışdır və inkişafda olan uşağın xüsusiyyətlərini və onu əhatə edən ətraf mühitin təsirini qeyd etmək üçün tərtib edilmişdir. FƏSBT-UY uşaq və yeniyetmələrin sağlamlığı, təhsili və əmin-amanlığı ilə maraqlanan təminatçılar, sifarişçilər və bütün şəxslər tərəfindən istifadə edilə bilər. Bu təsnifatda uşaq və yeniyetmələrin sağlamlığının və əlilliyinin təyin edilməsini və sənədləşdirilməsini asanlaşdırmaq üçün universal üsullar təqdim edilir.

**Tullantıların Statistik Təsnifatı** - Təsnifat Avropa Birliyinin Tullantıların Statistik Təsnifatı olan *EWC-Stat/variant 3* təsnifatı və Avropa Birliyinin Əsas Tullantı Siyahısı olan *List of Wastes* əsasında tərtib olunmuşdur. Statistik təsnifat göstəricilərin müqayisəliliyini təmin etmək üçün tərtib edilir. Bu baxımdan tullantıların statistik təsnifatı məlumatların standart konsepsiya əsasında toplanması, göstəricilərin zaman və məkana görə müqayisəliliyini təmin etmək üçün məlumat mənbəyidir. Tullantılar haqqında müşahidələrin (monitorinqin) təşkili, informasiyanın toplanması, onların təhlili mükəmməl təsnifatdan istifadə etməklə mümkündür. Yaranma mənbələri üzrə istehsal və xidmət sahələrində yaranan tullantılar təsnifləşdirmə obyekti hesab olunur.

**İqtisadi Fəaliyyətdə Xidmətlər Təsnifatı** – Bu təsnifat Əsas Məhsul Təsnifatı (CPA 2008) əsasında işlənmiş Məhsul Növləri təsnifatı (üçüncü variant) nəzərə alınmaqla hazırlanmışdır. Təsnifatın hazırlanmasında əsas məqsəd məlumat mübadiləsində beynəlxalq müqayisəliliyi təmin etməkdir. İqtisadi fəaliyyətdə xidmətlərin statistik uçotunun mürəkkəb xarakteri bu sahədə təsnifatın olmasını və sistemə nəzarətin kod strukturu ilə tənzimlənməsini şərtləndirir. İqtisadi Fəaliyyətdə Xidmətlər Təsnifatının təsnifləşdirmə obyekti xidmətlər hesab edilir.

**Sənaye Məhsullarının Son Təyinatına Görə Təsnifatı (Siyahısı) -** Sənaye məhsullarının son təyinatına görə təsnifatı (siyahısı) Avropa Birliyinin İqtisadi Fəaliyyət Növləri Təsnifatı (NACE rev.2) və Əsas Məhsul Təsnifatı (CPA 2008) əsasında işlənmiş İqtisadi Fəaliyyət Növləri (üçüncü variant) və Məhsul Növləri təsnifatları (üçüncü variant) ilə qarşılıqlı əlaqədə hazırlanmışdır. Təsnifatın hazırlanmasında əsas məqsəd sənaye məhsullarının son təyinatına görə kateqoriyalar üzrə qruplaşdırılmasıdır. Sənaye məhsullarının son təyinatına görə təsnifatında iqtisadi fəaliyyət növləri üzrə əsas sənaye qrupları: aralıq mallar, enerji, əsas vəsaitlər, uzun müddətli və qısa müddətli istifadə üçün istehlak malları bölmələrinə ayrılır.

**Enerji məhsullarının təsnifatı** – Enerji məhsullarının təsnifatı (EMT) Birləşmiş Millətlər Təşkilatının (BMT) Statistika Komissiyası tərəfindən tövsiyə edilmiş Beynəlxalq Standart Enerji Məhsulları Təsnifatı (SİEC) əsasında işlənib hazırlanmışdır. EMT-nin təsnifləşdirmə obyekti enerji məhsulları və enerjinin alınmasında istifadə oluna biləcək digər məhsul qrupları təşkil edir. Təsnifatın əsas məqsədi enerji statistikasının beynəlxalq müqayisəsini təmin etmək və enerji məhsullarının mövcud təsnifatını beynəlxalq standartlara uyğunlaşdırmaqdır.

**Ətraf mühitin mühafizəsi üzrə fəaliyyət növləri və çəkilən xərclərin təsnifatı -** Ətraf mühitin mühafizəsi üzrə fəaliyyət növləri və çəkilən xərclərin təsnifatı Avropa İttifaqı Komissiyasının (Statistika Bürosu/Avrostat) Ətraf mühitin mühafizəsi üzrə fəaliyyət növləri və çəkilən xərclərin təsnifatının (CEPA 2000) redaksiyasına tam uyğun olaraq işlənib hazırlanmışdır.

**Məhsulun (mal və xidmətin) statistik təsnifatına izahlar -** Bu sənəd məhsulun (mal və xidmətlərin) təsnifləşdirilməsində bu və ya digər səbəblər üzündən hər hansı bir çətinlik yarandıqda onun xüsusiyyətlərinə

görə məhsulun (mal və xidmətlərin) mövqeyini müəyyənləşdirmək məqsədilə Məhsul Növləri Təsnifatının üçüncü versiyasına (2009-cu il nəşri) əlavə material kimi hazırlanmışdır.

**1-ci cild -** Məhsulun (mal və xidmətin) statistik təsnifatına izahların 1-cildində kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq məhsulları; mədənçıxarma sənayesi məhsulları; emal sənayesi məhsullarının izahı öz əksini tapmışdır.

## STATİSTİK BÜLLETENLƏR *

| | | |
|---|---|---|
| 1 | Sənayenin işinin əsas göstəriciləri (kiçik sahibkarlıq subyektləri istisna olmaqla) | aylıq |
| 2 | Sənayenin işinin əsas göstəriciləri<br>- I bölmə - bütün sənaye müəssisələri<br>- II bölmə - kiçik sahibkarlıq subyektləri<br>- III bölmə - xarici və birgə sənaye müəssisələri | rüblük |
| 3 | Xarici və müştərək müəssisələrin işinin əsas göstəriciləri | illik |
| 4 | Kiçik müəssisələrin işinin əsas göstəriciləri | illik |
| 5 | Azərbaycan Respublikasında mal-qaranın və quşların mövcudluğu haqqında | illik |
| 6 | Azərbaycan Respublikasında mal-qaranın mövcudluğu haqqında | rüblük |
| 7 | Azərbaycan Respublikasında kənd təsərrüfatı bitkilərinin əkin sahəsi, məhsul yığımı və məhsuldarlığı haqqında | illik |
| 8 | Azərbaycan Respublikası üzrə cari ilin məhsulu üçün olan əkinlərin yekunu haqqında | illik |
| 9 | Azərbaycan Respublikası üzrə yazlıq bitkilərin səpini haqqında | aylıq, fevral-iyun aylarında |
| 10 | Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının yığımı haqqında | aylıq, iyun-noyabr aylarında |
| 11 | Kənd təsərrüfatı, meşəçilik, balıqçılıq və ovçuluq müəssisə və təşkilatları üzrə işçilərin sayı və əmək haqqı barədə | rüblük |
| 12 | Kənd təsərrüfatı müəssisə və təşkilatları üzrə | illik |

| | | |
|---|---|---|
| | işçilərin sayı, əmək haqqı və peşə təhsili barədə | |
| 13 | Kənd təsərrüfatı müəssisələrinin (kənd təsərrüfatına xidmət göstərən təşkilatlar da daxil edilməklə) fəaliyyəti haqqında | illik |
| 14 | Fərdi sahibkar təsərrüfatlarının fəaliyyəti haqqında | illik |
| 15 | Kənd təsərrüfatı meşəçilik, balıqçılıq və ovçuluq müəssisə və təşkilatları üzrə mal və xidmətlərin istehsalı və göndərilməsi | rüblük |
| 16 | Kənd təsərrüfatı müəssisə və təşkilatlarının istehsal fəaliyyəti haqqında | yarımillik, illik |
| 17 | Əsas fondların mövcudluğu və hərəkəti haqqında | illik |
| 18 | Təbii ehtiyatların mühafizəsi və səmərəli istifa-dəsinin əsas göstəriciləri | Illik |
| 19 | Təhlükəli tullantılar haqqında | Illik |
| 20 | Tikinti müəssisələrinin işinin əsas göstəriciləri | aylıq, illik |
| 21 | Obyektlərin, əsas fondların istifadəyə verilməsi və əsas kapitala yönəldilmiş investisiyadan istifadə edilməsi | Aylıq |
| 22 | Şəhər və rayonlar üzrə tikintinin əsas göstəriciləri | rüblük |
| 23 | Tikintinin əsas göstəriciləri | illik |
| 24 | Ölkə ərazisində tikintinin aparılmasına verilmiş icazələr haqqında | yarımillik |
| 25 | Yaşayış fondu | illik |
| 26 | Mənzil şəraitinin yaxşılaşdırılması üzrə əsas göstəricilər | illik |
| 27 | Azərbaycan Respublikasında nəqliyyat və rabitənin işinin əsas göstəriciləri | aylıq, rüblük |
| 28 | Qiymətlər və qiymət indeksləri | aylıq |
| 29 | Sənaye sahələrində qiymətlərin səviyyəsi və dinamikası | aylıq |
| 30 | Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətlərinin səviyyəsi və dinamikası | aylıq |
| 31 | Tikinti işləri üzrə qiymətlərin səviyyəsi və dinamikası | rüblük |
| 32 | Azərbaycanda cinayətkarlıq | yarımillik, illik |
| 33 | Azərbaycanda məhkumetmə, məhkəmələrdə baxılan işlər | yarımillik, illik |

| | | |
|---|---|---|
| 34 | Azərbaycanda prokurorluq orqanlarının işi | yarımillik, illik |
| 35 | Təhsilin əsas göstəriciləri | illik |
| 36 | Mədəniyyətin əsas göstəriciləri | illik |
| 37 | Yerinə yetirilmiş elmi-texniki işlər üzrə əsas göstəricilər | illik |
| 38 | Doktoranturanın işi haqqında | illik |
| 39 | Azərbaycanın əhalisi | illik |
| 40 | Səhiyyə və sosial təminatın əsas göstəriciləri | illik |
| 41 | Enerji məhsullarının hərəkəti | illik |
| 42 | Dövlət büdcəsindən maliyyələşdirilən, istehlakçıların istifadə etdikləri elektrik və istilik enerjisi, təbii gaz, su və rabitə xidmətləri | rüblük |
| 43 | Enerji məhsullarının qalığı, daxil olması və məsrəfi | aylıq |
| 44 | Təkrar xammalın (tullantıların) yaranması və istifadəsi | illik |
| 45 | Azərbaycanın xarici ticarət əlaqələri | aylıq |
| 46 | İri və orta ticarət müəssisələrinin əsas göstəriciləri | aylıq |
| 47 | Ticarət müəssisələrinin əsas göstəriciləri | rüblük |
| 48 | Turizm müəssisələrinin fəaliyyətinə dair əsas güstəricilər | yarımillik, illik |
| 49 | Mehmanxanaların fəaliyyətinə dair əsas göstəricilər | yarımillik, illik |
| 50 | Yerli özünüidarəetmə orqanlarının (bələdiyyələrin) büdcələrinin icrası | rüblük, illik |

* Yalnız Azərbaycan dilində nəşr olunur.